# NURLANIN ANTEY GÜCÜ

## Yaxud Sevindik Nəsiboğlunun "Zəfəri nurlandıran Nurlan" sənədli povesti haqqında düşüncələr



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

### II hissə

44 günlük Vətən uğrunda savaş xalqımızın tarixində, xüsusilə xalqın özünün yaddaşında əbədi yaşayacaq. Ona görə yox ki, biz bu müharibədə qalib gəlmişik, ona görə yox ki, torpaqlarımız işğaldan azad olundu, bu müharibədəki qələbə bizə böyük fərəh bəxş etdi. Ona görə yaddaşımızda qalacaq ki, düşmənə səfərbər olaraq qalib gəlmişik. Bu müharibədə hər kəs döyüşürdü. Ali Baş Komandan da, əsgər də, sıravi xalq kütləri də - hər kəs öz mövqeyindən, özünün əməli fəaliyyətindən çıxış edərək döyüşürdü. Bu da xalqımız üçün xüsusi yaddaş əhəmiyyəti kəsb elədi. İnsanlar başa düşdülər ki, birləşmədən, bir-birinə dayaq durmadan, vətən mənafeyi naminə birliyin vacib olduğunu bilmədən qalib gəlmək mümkün deyil. Bax elə buna görə də 44 günlük müharibə tarixi Azərbaycan xalqının tarixi taleyindən keçən hadisədir. Məhz taleyimizdən keçdiyi üçün heç vaxt unudulmayacaq.

Etiraf etmək lazımdır ki, əgər bu müharibədə biz qalib gəlməsəydik, Azərbaycan özü dövlət kimi sual altında qalardı. Bədxahlarımız, Azərbaycanın birliyini istəməyən qüvvələr parçalanmaq toxumu səpər, ölkənin mənəvi mühitini dağıdardılar. Bu da istər-istəməz 90-cı illərin əvvəllərindəki acı taleyi xalqımıza təzədən yaşatmalı olardı.

Mən belə bir qənaətdəyəm ki, müharibə rəsmi olaraq qələbə ilə bitsə də, yaddaşımızda, düşüncəmizdə hələ də davam edir. Yazıçılar, sənətkarlar həmin müharibənin xronikası əsasında özlərinin düşüncə, təxəyyül məhsullarını yazıya köçürməli olacaqlar. Bu da gələcək nəsillərin yaddaş təminatı üçün çox vacib bir məsələdir.

Birmənalı şəkildə qeyd edirəm ki, tarixi hadisələrin yaddaşa köçürülməsində qələm sahiblərinin əvəzsiz rolu var. Jurnalistlər, publisistlər xronikanı dəqiq göstərməklə, şairlər hadisələri bədii lövhələrlə poetik şəkildə təqdim etməklə yeni nəsillərin mənəviyyatında gələcək üçün ibrət kitabı yaradırlar.

Sevindik Nəsiboğlunun istedadı, mənəvi potensialı, hadisələri, obrazları sözə gətirmək bacarığı haqqında danışmaq fikrində deyiləm, çünki bu barədə əvvəllər də yazmışıq. İnsafən, Sevindik Nəsiboğlu istedadlı bir gənc kimi mətbuatın və televiziyanın həmişə diqqətindədir. O, təkcə yazıları ilə yox, hər hansı bir mövzu haqqında bitkin təəssüratları ilə də diqqəti cəlb edir. Hər hansı bir məsələ haqqında danışarkən onu əhatəli şəkildə təsvir edə bilir. Bütün bunların hamısında mühüm əhəmiyyət kəsb edən bir cəhət var. Sevindik vətən sevgisi ilə böyüyən bir gənc olduğu üçün yazı üçün seçdiyi obrazı əhatəli öyrənə bilir. Öyrəndiyini qanadlı duyğuları ilə sözə gətirə bilir.

Kimsəyə sirr deyil ki, 44 günlük Vətən savaşının bir önəmli cəhəti də Azərbaycan ordusunun vətən yaralarına görə düşməni cəzalandırmaq niyyəti vardı. Bu niyyəti, bu istəyi, şübhəsiz, döyüş meydanında Azərbaycan əsgəri yerinə yetirməli idi. Bunun üçün əsgərlər sözün həqiqi mənasında müstəqillik dövrünün yetirmələri kimi vətən dərsi keçmişdilər. Vətəndaşlığın nə demək olduğunu öyrənmişdilər. Görünür, bu səbəbdən də əsgərlər vətən uğrunda şəhid olmağı da, yaralanmağı da şərəf bilirdilər. Ali Baş Komandan özü də çıxışlarında dəfələrlə təkrar edib ki, Azərbaycan ordusundan bir nəfər də olsun fərari olmadı. Əksinə, düşmən ordusunun erməni silahlılarının vəhşi, yırtıcı təbiəti tezliklə onların qorxaqlığı və simasızlığı ilə əvəzləndi.

On min nəfərdən çox erməni döyüşçüsü silahı atıb müxtəlif yollarla Ermənistana qaçmışdı. Erməni komandanlığı yaratdıqları erməni qəhrəmanlığı haqqındakı mifin puça çıxdığını öz gözləri ilə gördülər. Onlar başa düşdülər ki, ötən 30 il ərzində Azərbaycanda elə bir yeni nəsil dünyaya gəlib formalaşıb ki, onlar özlərinin həyatı uğrunda yox, vətən uğrunda savaşmağı amal kimi qəbul ediblər. Bu böyük tarix və həyat dərsi idi. Demək olar ki, Azərbaycan ordusunun hər bir əsgəri sözün həqiqi mənasında əfsanə qəhrəmanına çevrilməyə layiqdir. Vətənin mənafeyi uğrunda şəhadətin nə demək olduğunu istedadlı şair, publisist Sevindik Nəsiboğlu ayrı-ayrı əsərlərində dəfələrlə, çox dəyərli yazıları ilə,özünü ifadə imkanları ilə göstərə bilib.

"Möhtəşəm zəfərin nişanəsi" kitabını təkcə bu gün üçün yox, gələcək üçün də sözün həqiqi mənasında söz mülkümüzün hər yeindən görünə bilən ədəbi abidə kimi müşahidə etmək mümkündür. Elə bu yerdə fəxarətlə qeyd edərdim ki, Sevindik Nəsiboğlu əslində "Möhtəşəm zəfərin nişanəsi" ədəbi abidəsini ən müxtəlif adlar altında ilhamlı yaradıcılığı ilə davam etdirməkdədir. Şübhəsiz, "Zəfəri nurlandıran Nurlan" sənədli povesti də elə həmin abidənin davamı kimi qavranıla bilər.

Əsərin xüsusi məziyyətləri çoxdur. Amma bir əsas məziyyəti ayıca qeyd etməliyəm. Sevindik əsər boyu yalnız Nurlanın vətən sevgisindən, Şuşa sevgisindən danışmır. Həm də onun atasının, anasının, doğmalarının - bir sözlə, müasir Azərbaycan insanının vətən sevgisi ilə bağlı düşüncəsindən söhbət açır. Bu da onu göstərir ki, Nurlan dibçəkdə bitən gül kimi yetişdirilməyib. O, Azərbaycan xalqının ruhundan doğulub. Əsərdə ayrı-ayrı adamların adından verilmiş parçaları oxuduqca bizə elə gəlir ki, müharibədə Nurlan yox, Nurlanın atası iştirak etsəydi, elə Nurlanın özü qədər əfsanəvi qəhrəman olardı.

Kitabda şəhid Nurlan Həsənovun atası Nadir Həsənovun söhbəti yer alıb. Əlbəttə, bir atanın oğul itkisində yaşadığı iztirabları, həlak olan oğulun təbiətindən qalan yanğıları müəllif ustalıqla verir. Həm də ona görə ustalıqla verir ki, Nurlanın tasının özü də, onun əsas ədəbi qəhrəmanlarından biridir. Biz bir atanın duyğulanmaları boyu onun yaşadığı hissləri izlədikcə Azərbaycan cəmiyyətində şəhidliyə münasibətin əsl təbiətini görə bilirik. Yəni şəhid olan əsgərin yanğısını təkcə ata çəkmir. Biz atanın timsalında elə vətənin özünü görürük. Deməli, əsər boyu bir ata obrazının timsalında vətən obrazı da oxucunun gözlərində boya-boy yer alır. Əzəməti ilə özünü təqdir edir. Düşüncəmiz, varlığımız bütünlüklə elə səfərbər olunur ki, biz əsl qəhrəmanın elə oğulun timsalında, atanın timsalında, qeyrilərinin mahiyyətində vətən olduğunu görürük. Bu mənada vətən yenilməzliyini təsdiq edir. Düşmənə bir daha aydın olur ki, yaranmış tarixi şəraitdən istifadə edib torpaqları işğal etsə də, onun qələbəsi bütün dəhşəti ilə öz başında çatlamalı oldu.

Nurlanın atası öz çıxışında vətənin şəhidliyə münasibətini bütün qabarıqlığı ilə göstərib: "İndi Nurlanın dostları, xidmət, döyüş yoldaşları bu evi ziyarət edirlər. Hər gün inanılmaz sayda insanlar bura gəlir. Dostları gəlir, tanışlar, qohumlar gəlir, onlar, həqiqətən də buraya, şəhid evinə, vətən fədaisinin ziyarətinə, onun ruhunu ziyarət etməyə sel kimi axışırlar. Doğrudan da, buranı həqiqi ziyarətgaha çeviriblər. Nurlanın ruhu dolaşan, onun əmanətlərinin yaşadığı bu evi bir gün boş olmur. Hamısı Nurlanın müqəddəs şəhid adına gəlir. Şəhid evi olduğu üçün gəlib ziyarət edirlər. Ziyarətçilərin çoxu, bəlkə də məni yaxşı tanımır. Amma Nurlana görə məni də tanıyırlar. Mən hamısına təşəkkürümü bildirirəm. Onlara qəlbimin sağalmaz yarası və eyni zamanda qürurum olan Nurlanımdan fəxrlə danışıram. Bu, mənim üçün qürurvericidir. Nurlanıma görə müxtəlif insanlar, vətənsevərlər, şəhidlərimizi qəlblərində əbədi yaşadanlar məni də şəhid atası kimi tanıyırlar. Çünki mən vətən fədaisi, Şuşa təşnəsi şəhid leytenant Nurlanın atasıyam. Allah şəhid olmuş bütün balalarımıza rəhmət eləsin, qazilərimizə şəfa versin, ordumuzu, xalqımızı bütün bəlaladan, düşmənlərimizin hiylə və məkrindən hifz eləsin". Mən tam əminliyimlə qeyd edirəm ki, bu düşüncələrin müəllifi nə qədər dərəcədə Sevindik Nəsiboğuldursa, nə qədər dərəcədə Nurlanın atasıdırsa, eləcə də Nurlanın özüdür. Dağ kəndində, bəlkə də, müharibədən çox-çox uzaqlarda yaşayan bir nənənin özüdür. Bağçada dil açıb vətən qəhrəmanları haqqında nəğmələr oxuyan bir körpə balanın özüdür. Zənnimcə, bu cür duyğulanmalara əsas verən sənədli povestin xüsusi yanğı ilə qələmə alınmasıdır. Elə bu yerdə onu da qeyd etmək olar ki, Nurlanın atası fəxr edə bilər ki, hamının düşüncəsinə hakim olan bir oğul böyüdə bilib. Vətənin bütün mahiyyətini özündə ehtiva edən bir oğul üçün kim fəxr etməz.

Nurlan ailəli idi. O döyüşə gedəndə yaxşı bilirdi ki, cismən müharibədən qayıtmaya da bilər. Amma onu da yaxşı bilirdi ki, müharibədən vətənə qayıdan qələbə xəbəri onun övladları üçün ata əvəzi olacaq. Çünki onun övladları bu qələbə ruhu ilə böyütəcək. Qələbənin aşıladığı hiss, heç şübhəsiz, yenilməzlik duyğusudur. Hər hansı bir ailədə böyüyən uşaq üçün belə bir hissin, duyğunun aşılanması əslində bütün məktəb sisteminin yerinə yetirilməsi deməkdir.

S.Nəsiboğlu 15 yaşın civarındadır. Ancaq biz onu həssaslığına görə, xüsusi duyğulanmalarına görə bir vətən secdalı yetkin qələm sahibi kimi görürük. O, məqamı gələn kimi sözünün axarını dayandıra bilir. Sözə yeni bir tərqavət gətirə biləcək obrazı qabağa çəkir. Məhz həmin obrazın dili ilə qəhrəmanın taleyinə yenidən canlılıq gətirir. Bu obrazlardna biri şəhid Nurlan Həsənovun, yəni vətən qəhrəmanının qızı Nurgüldür. Nurgülün adınan atasının ünvanına bir məktub təqdim olunur. Məktub o qədər həssas, duyğulu, sözün həqiqi mənasında ürəkləri titrədən bir hisslə qələmə alınıb ki, istər-istəməz yazını oxuyan hər kəsin yaddaşında özünə əbədi yer eləyir. Biz bu məktubda təkcə Nurlanı yox, həm də qızını bütün parlaqlığı ilə gördüyümüz kimi, vətən ruhuyla böyüyən balaların özlərini də görə bilirik. Yazının məktub ruhu sözün həqiqi mənasında oxucunun qəlbini kövrəldir. Hər kəsin varlığına hakim kəsilir. Daha biz axtarmırıq ki, körpə bir qızcığaz bunları özü düşünə bilər, ya qeyrisi. Məktub belə başlanır: "Salam, ay ata. Mənəm Nurgül. Adımı çox sevirəm, çünki bu adı mənə sən və anam birlikdə qoymusunuz. Amma mən öz adımdan başqa deyirəm ki, mən leytenant Həsənov Nurlanın qızıyam. Ata, biz Məhəmmədlə birlikdə hər ikimiz səni çox istəyirik. Hər gün sənin işdən evə qayıtmağını səbirsizliklə gözləyirik... Evdəkilərə deyirəm ki, atam işdən gələndə ikimizi də qucağına alardı, bizə hədiyyələr alardı... Biz səninlə gəzməyə gedərdik, ata..-.Ata, yadındadır, sən mənə saçım qıvırcıq olduğu üçün "pırpızım" deyərdin... Sən evə gələndə anam həmişə sənin ən sevdiyin yeməkləri bişirib səni gözləyərdi. Mən də pəncərədən baxıb səni görəndə qaçırdım qapıya, "ata gəldi, ata gəldi", - deyərdim... Sən bizi rayona - nənəgilə aparardın... Ata, biz səninlə hər gün danışardıq, sən zəng edəndə həmişə deyirdin: "Nurgül, qızım, darıxma, gələcəyəm, ağlama..."İndi yazılarıma kim baxacaq? Sən axı dedin, özün baxacaqsan?! Mən dərslərimə baxıram, ata, amma sən yoxlamalısan, düzdür? Amma sən yenə də gəlmədin... Bizi rayondan evimizə dayım gətirdi. Evimiz boş idi, biz gələndə sən bizi artıq gözləmirdin...

*(Davamı 11-ci səhifədə)*

# NURLANIN ANTEY GÜCÜ

*(Əvvəli 10-cu səhifədə)*

Bizdən küsməmisən ki? Yadımdadır, bir gün sən bizə görüntülü zəng etdin, yanında çoxlu əsgər var idi, elə sən də əsgər paltarında idin. Mən sənə mahnı oxudum. O mahnı yadınadır, ata? "Vur, komandır, vur düşməni..." mahnısını oxuyurdum. Mahnımı bitirəndə siz hamınız mənə əl çaldınız... Sən dedin ki, qızım, düşmənləri məhv edib gələcəyəm. Düşmənləri məhv etdiniz, amma yenə gəlmədin... Ata, o əsgərlər indi sənin yadındadırlar? Mən bilirəm, sən qəhrəmansan, ata. Sən Şuşamızı azad etdin. Ana deyir ki, sən bizi göylərdən izləyirsən. Ata, bəs mən səni niyə görə bilmirəm, sən bizi görürsən? Ata, bilirsən, mənim ad günümə ana mənə velosiped aldı! Elə çox sevindim ki! Amma təki sən qayıdasan, başqa heç bir şey istəmirəm. Məhəmməd çox darıxır sənin üçün. Sən deyirdin ki, onu futbolçu edəcəksən. Onunla futbol oynayardınız, yadına düşür?.. Ata, axı sən mənə söz vermişdin ki, gələcəksən...". Bu qeydləri ədəbiyyat baxımından, söz-sənət müstəvisindən diqqətdən keçirməli olsaq, müəllifin sözlə işləmək bacarığını xüsusi qeyd etməliyik. O, ən adi bir ifadəni də elə həssaslıqla, elə dəqiqliklə yerində işlədir ki, söz istər-istəməz sanki canlı varlığa çevrilir, qanadlanır. Uçub qəlbimizə dolur, bizə həssaslıq, doğmalıq hissləri bəxş edir. Nurlanın oxuduğu məktəbin müəllimləri, bir sözlə, onu yaxından tanıyan hər kəs Nurlanın diqqətindən kənarda qalmır. Və S.Nəsiboğlu hər kəsi öz aləmi ilə, öz duyğuları ilə yazıya gətirə bilir.

Kitabda əvvəlcədən də qeyd etdiyimiz kimi Nurlanın çox həssaslıqla qələmə aldığı poeziya örnəkləri də yer alıb. Ancaq onu da qeyd etmək lazımdır ki, bu şeirlər, poetik parçalar və hətta ayrı-ayrı müəlliflərdən gətirilən şeir nümunələri kitabda ögey yer tutmur. Müəllifin hisslərini, duyğularını tamamlayır. Ona görə də biz həmin şeirləri də maraqla oxuyuruq. Bunun əsas səbəbi odur ki, Sevindik Nəsiboğlu birinci növbədə özü şairdir. Hətta publisistikasında da o, poetik ruhun daşıyıcısı olaraq görünür. Sözünün ağrısını, acısını, bir sözlə, sözünə verdiyi mənanın əsas yükünü müəllif kimi özü çəkir.

Onu da qeyd etmək yaxşı olar ki, Sevindik Nəsiboğlu Nurlan və vətən şəhidlərini torpağın müqəddəsliyi ilə birgə tutur. Bu duyğulanmaları müxtəlif yaş zümrəsindən olan insanların düşüncələri ilə eyniləşdirir. Maraqlıdır ki, Nurlanın iki nənəsi haqqında da kitabdan informasiya ala bilirik. Sevindik nənələrin ruhunu, təbiətini onların dilindən verdiyi bayatılarla təqdim edir. Müəllifin qeydindən hiss olunur ki, bahyatılar elə S.Nəsiboğlunun özüdür. Ancaq hər bir bayatıda nənə qəlbinin döyüntüsünü də hiss edə bilirik.

Şəhid Nurlan Həsənovun ata nənəsi Gülayə Həsənovanın dilindən verilən bayatıları hissiz, həyəcansız oxumaq mümkün deyil. Bir neçə nümunəni oxuculara da çatdırmağı özümüzə borc bilirik:

Şuşa dağı dumandı,
Görüşümüz gümandı,
Sənsiz çox darıxmışıq,
Tez qayıt, gəl, amandı!

Gedişin son olubdu,
İzlərin də dolubdu,
Əkib getdiyin güllər,
Həsrətindən solubdu.

Gül-çiçəklər açdı, gəl,
Aləmə nur saçdı, gəl,
Gözdə yaşım qalmadı,
Selləndi hey, daşdı, gəl!



Sevindik Nəsiboğlu (Əliyev Sevindik Nəsib oğlu) 26 iyul 2008-ci ildə İmişli şəhərində anadan olmuşdur. O, əslən Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndindən olmaqla Xocavənd rayonunun Muğanlı kəndində daimi qeydiyyatdadır. Hazırda 9-cu sinif şagirdi, dərs əlaçısıdır.

Onun şeirləri hələ 2015-ci ildən müxtəlif qəzet və jurnallarda dərc olunmuş, milli radio və televiziyanın, eləcə də digər televiziya kanallarının efirində yayımlanan verilişlərdə dəfələrlə səsləndirilmişdir. Sevindik ictimai fəallığına görə "Həqiqət" Tarixi Araşdırmalar İctimai Birliyinin "Gənc istedad"(2017), "Afia.az" İnformasiya Agentliyinin "Ən yaxşı yazar"və "İlin şagirdi", həmçinin "Azərbaycan XXI əsrə istedadlarla" layihəsi çərçivəsində "Gənc istedad" diplomlarına layiq görülmüşdür. 2018-ci ildə onun "Dünyamsan Azərbaycan" və "Hərdən uçmaq istəyirəm" adlı şeir, 2020-ci ildə "Ulu Naxçıvanım" adlı nəsr, "Könüllərə yol gəzirəm" adlı şeir, 2021-ci ildə şəhidlərimizə və işğaldan azad olunmuş torpaqlarımıza həsr olunmuş "Möhtəşəm Zəfərin nişanəsi" adlı bədii-publisistik kitabları nəşr edilmiş, redaksiya heyətinin üzvü və ən gənc ictimai müxbiri olduğu "Kredo" qəzetində çoxsaylı məqalələri, araşdırmaları və şeirləri mütəmadi dərc olunmuş, "Afia.az", "XeberTime.az", "Versus.az" və digər xəbər saytları vasitəsi ilə yayımlanmışdır. Vətən müharibəsi başlanan günün ilk anlarından Sevindik qələmini mənfur düşmənin sinəsinə sancılan süngüyə çevirərək Ali Baş Komandanımızın rəhbərliyi ilə Müzəffər ordumuz tərəfindən azad edilmiş torpaqlarımıza, qəhrəman əsgər və zabitlərimizə şeirlər və publisistik yazılar həsr etmişdir. Onun günbəgün yaxınlaşdığımız müqəddəs Zəfərimizə həsr etdiyi "Zəfərin nişanəsi" adlı şeiri Mədəniyyət Nazirliyi tərəfindən keçirilən ədəbiyyat müsabiqəsinin qalibi olmaqla Nazirliyin fəxri fərmanına layiq görülmüş, bu mövzuda qələmə alınmış "Dirçələn Xarıbülbül" adlı kitabın materialları isə nəşr olunması üçün Mədəniyyət Nazirliyinin müvafiq komissiyasına təqdim edilmişdir. Sevindik Nəsiboğlu 2021-ci ilin iyun ayından Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Bu bayatıların aşıladığı duyğular dünya görmüş bir nənənin müşahidələrinin göstəricisidir. Amma Sevindik bu duyğulanmaları çox təsirli obrazlara çevirə bilir: "Əkib getdiyin güllər, həsrətindən solubdu" - nə qədər təsirli, nə qədər yandırıcı ifadə tərzidir. Duyğunun bu cür çatdırılması ancaq binadan şair olan, təbi bulaq kimi çağlayan müəllifə xas olan keyfiyyətdir.

Yaxud, Nurlanın ana nənəsi, Sürəyya Quliyevanın dilindən səslənən bayatılar. Bu bayatılarda da ağrının, acının yüksək həssaslıqla təqdimini görürük.

Bu dağlar çənsiz olmaz,
Dumansız, çənsiz olmaz,
Qəlbimiz həsrətində,
İnan ki, sənsiz olmaz.

Həsrətindən yanıram,
Yanıb alovlanıram,
Sənsizəm çox zamandı,
Bezirəm, usanıram.

Ay mənim qara balam,
Dərdimə çara balam,
Gedişinlə vurmusan
Qəlbimə yara, balam!

Bayatıların motivi ənənəvi bayatı obrazları üstündə qurulsa da, son nəticədə azərbaycanlı bir nənənin, vətənin, yurdun nə demək olduğunu bilən bir ağbirçəyin könül yanğısını dilə gətirən ağılara çevrilir.

Nurlan vətən müharibəsi qəhrəmanıdır. Onun xatirəsi bundan sonra da əbədi olaraq yaddaşda yaşayacaq. Əsas odur ki, bu xatirəni və digər şəhidlərin döyüş yolunu, mübarizə əzmini biz tarixə çevirə bilək. Yaddaşlarda yaşada bilək. Yeni doğulan nəsillər dünyaya gələn övladlar onların döyüş ənənələrini mənimsəsinlər, əxz etsinlər, vətəni necə sevmək olar, bunu məhz Nurlan kimi qəhrəmanların timsalında öyrənsinlər.

Həyat belədir. Ağlı-qaralı günlər bəxş edir. Otuz il Azərbaycan torpaqları işğalda qaldı. Xalqımız mənəvi qaralıq ömrü yaşadı, amma zaman gəldi ki, Azərbaycan oğulları torpaqları işğaldan azad etdilər. Məhz bu tarixi yazan müəlliflər, o cümlədən Sevindik Nəsiboğlu gələcək nəsillər üçün əbədi örnək kitabları yaradırlar.

Sevindik Nəsiboğlunun "Zəfəri nurlandıran Nurlan" sənədli povestinin də dəyəri məhz bu mahiyyətlə daha aydın görünür.

Sözümün sonuna doğru bir daha Şuşayla bağlı düşüncələrə qayıdıram.

Vaxtı ilə Şuşanın işğal olunduğu gündən üzü bəri keçən vaxtın hər anı şuşalılar üçün bir əzablar ilindən betər olub. Elə ona görə də şuşalı ata, ana oğullarının Şuşa uğrunda savaşa qatılmasını, yəni Qarabağın azadlığı uğrunda müharibəyə qoşulmasını mənən alqışlayırdılar. Bu ailə fəxr edirdi ki, onların övladları döyüşçüdür, vətən uğrunda savaşçıdır.

Sevindik Nəsiboğlu ailənin doğma yurddan. Şuşadan ayrı yaşadığı günlərin həsrət acılarını da xüsusi yanğı ilə təsvir edir. Bu təsvirlərin hər birində, hər bir cümləsində biz Azərbaycan xalqının istəyini duyuruq. Mənə elə gəlir ki, Sevindik Nəsiboğlunun kitabındakı bu həsrət, yanğı motivləri təkcə Nurlanın ailəsi üçün təskinlik olsun deyə yazılmayıb. Bu təsvirlər sözün həqiqi mənasında həm də gələcək nəsillər üçün yazılıb, gələcək nəsillərə xəbərdarlıq üçün yazılıb. Ona görə yazılıb ki, gələcək nəsillər bu qeydlərdən ibrət nəticəsi çıxarsınlar. Unutmasınlar ki, vətənin bir parça torpağı əldən gedəndə onu qaytarmaq üşçün illər lazım olur. İtirilmiş hər bir ərazini geriyə qaytarmaq üçün neçə-neçə oğullar öz canlarından keçməlidirlər.

Sevindik Nəsiboğlunun "Zəfəri nurlandıran Nurlan" kitabının əsas məziyyətlərindən biri də öz qəhrəmanını təkcə döyüş yerində yox, ailədə, dostları arasında, doğmalarının mühitində də səmimiyyətlə təsvir etməsidir.

Kitabda maraqlı foto şəkillər də verilib. S.Nəsiboğlunun oxuculara təqdim etdiyi "Zəfəri nurlandıran Nurlan" kitabındakı şəkillərin hər biri qəhrəmanın həyatının müəyyən mərhələsini əks etdirən tarixi sənədlər təsiri bağışlayır.

İllər keçəcək, bu kitabda şəkilləri verilmiş Nurlanın balaca övladları böyüyəcək, atalarının kimliyi haqqında əsas məlumatları məhz bu kitabdan öyrənəcəklər. Bu mənada elə Sevindik Nəsiboğlunun "Zəfəri nurlandıran Nurlan" kitabı həm də ən şərəfli tariximizin çox dəyərli hissələrindən biridir. Sevindiyin özünün şeirləri, hətta Nurlanı əzizləyən, sevən insanların onun haqqında yazdıqları da çox maraqla oxunur. Hətta kitabda qəhrəman Nurlan Həsənovun anası Həqiqət Həsənovanın övladına həsr etdiyi yazısından bir parçanı da həyəcansız oxumaq olmur.

Dünya boyda yüküm var mənim,
Qəm karvanından mənə da pay düşdü.
Bir zaman xoşbəxt gülən üzümə,
Qəm ocağından bir duman çökdü.

Gülən üzüm soldu mənim,
Qalan ömrüm mənasız oldu.

Nurlan deyib ağlaram hər gün,
Oğlum, sənsiz ürək yandı köz oldu.

Sən vətən deyib bayrağı seçdin,
Şuşa deyib yola düşdün,
Vətən deyib şəhid oldun,
Ananın, elin-obanın fəxri oldun.

Təsirli misralardır. Ana qəlbinin harayıdır. Bu harayı kim dinləyə bilirsə, o, vətən uğrunda canını qurban vermiş hər bir oğulu özünün övladı bilər. Sevindik Nəsiboğlunun özünün də Nurlana həsr etdiyi şeirindən bir parça istənilən oxucunun qəlbini riqqətə gətirər.

Bir qızı, bir oğlu ondan yadigar,
Gözümüz kimi dəyərlidir onlar,
Zəfərlə təsəllini tapacaqlar,
Şəhid atayla qürur duyacaqlar.

Onlar doymadılar atalarından,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Şəhidim ruhunla döndün Şuşana,
Göstərdin gücünü cümlə-cahana,
Ömür boyu ruhuna duaçıyıq,
Borcluyuq biz sənin tək qəhrəmana.

Qürur duyur səninlə Azərbaycan,
Şuşanı ruhuyla fəth edən Nurlan.

S.Nəsiboğlunun bu əsəri sənədli povestdir. Real həyat hadisələri əsasında yazılıb. Qəhrəmanın özü də tarixi şəxsiyyətdir.

Zaman-zaman yaddaşımızda yaşayacaq qəhrəman Nurlan Həsənovun xatirəsinə ən dəyərli abidə kimi bu əsəri hər kəs, xüsusilə gələcək nəsillər gənc yazıçının tarixi töhvəsi kimi yadda saxlayacaq.

***11.08.2023***